# ÖZ NİYƏ-Nİ TAP

**Saymon Sinek** insanlığın parlaq gələcəyinə inanan nikbin bir insandır. Onun Ted platformasındakı çıxışı ən çox baxılanlar siyahısında üçüncü yerdə dayanır. Onun yaradıcılığı barədə daha ətraflı StartWithWhy.com veb səhifəsindən öyrənə bilərsiniz.

**Saymon Sinekin digər kitabları:**

*"Niyə ilə başla":*
*Böyük liderlər digərlərini "addım atmağı" necə ruhlandırır.*
*"Liderlər ən axırda yeyirlər":*
*Niyə bəzi komandalar birlikdə fəaliyyət göstərə bildikləri halda digərləri bunu bacarmırlar.*
*"Birlikdə daha yaxşıdır":*
*Kiçik ruhlandırma kitabı.*
*(Təsvirlər Etan M. Oldridcə məxsusdur).*
*Sonsuz oyun*

**Devid Mid** korporativ təlimçi kimi fəaliyyətə başlayıb. O, 2009-cu ildə "Niyə ilə başla" komandasına qoşulub, Saymon Sinekin ideyalarının daha geniş yayılmasına töhfələr verib. O, hazırda liderlik və mədəniyyət haqqında düşüncələri dəyişmək üçün geniş auditoriyalar qarşısında çıxış edir, seminarlar aparır.

**Piter Doker** sabiq Kral Hava Qüvvələri zabiti, peşəkar pilotdur. 2011-ci ildə "Niyə ilə başla" komandasına qoşulandan sonra dünya səviyyəli şirkətlərə öz ideyalarını reallaşdırmaq üçün məsləhətlər vermiş, liderlərin yetişməsinə yardımçı olmuş, korporativ mədəniyyətin formalaşması işinə töhfələr vermişdir.

# Mündəricat

Ön söz ....................................................................9

Giriş ....................................................................17

Fəsil 1
Niyə ilə başla: Əsaslar ....................................................27

Fəsil 2
Öz niyəni kəşf et: Ümumi dəyərləndirmə ...................43

Fəsil 3
Fərdlər üçün niyə-nin kəşfi ........................................53

Fəsil 4
Qrup üçün niyə-ni tapmaq
Birinci hissə: Qəbilə yanaşması ..................................87

**Fəsil 5**
**Qrup üçün niyə-ni tapmaq**
**İkinci hissə: Qrup ilə danışmaq ....................................111**

**Fəsil 6**
**Öz necə-nizi ifadə edin ................................................149**

**Fəsil 7**
**Mövqe nümayiş etdirin**
**İnandığınız şeyləri edin................................................177**

**Əlavə 1**
**Tez-tez verilən suallar ..................................................201**

**Əlavə 2**
**Dostunun, yoldaşının niyə-sini aşkarlamaq**
**prosesində tərəfdaş kimi çıxış etmək**
**istəyənlər üçün qısa məsləhətlər ..................................213**

**Əlavə 3**
**Qrup niyə-sinin aşkarlanmasında**
**vasitəçinin rolu ...............................................................217**

**Minnətdarlıq...................................................................223**

# Ön söz

## Saymon Sinek

Özünü reallaşdırmaq sizin haqqınızdır, imtiyazınız deyil. Bizim hər birimiz gördüyümüz işdən zövq almalı, işə getmək üçün səhər yuxudan şövqlə oyanmalı, işdə olarkən özümüzü təhlükəsiz hiss etməli və işdən evə hansısa töhfələr vermiş biri kimi qayıtmalıyıq. Özünü reallaşdırmaq lotereya deyil. Bu hiss "Mən gördüyüm işdən zövq alıram" deyən bir neçə şanslı insana aid deyil.

Liderlik mövqeyindəki insanların vəzifəsi iş yerində elə bir mühit yaratmaqdır ki, işçilər özlərini daha böyük amalın tərkib hissəsi hesab etsinlər. Əgər siz hər iş gününü məyus başlayıb məyus da bitirirsinizsə, o zaman özünüz arzuladığınız liderə çevrilməlisiniz. Şirkətdə tutduğumuz mövqedən asılı olmayaraq, hər birimizin iş gününü daha mənalı keçirməsinə yardımçı ola biləcəyimiz ən azı bir iş yoldaşımız, müştərimiz və ya satıcımız mövcuddur. Məqsəd qarşımızı kəsən maneələrə köklənmək olmamalıdır. Siz ətrafınızdakı insanlarda müsbət əhvali-ruhiyyə yaratmağa çalışmalısınız.

"Niyə" konsepti çətinliklə üzləşdiyiniz zaman çıxmağa qərar verdiyiniz səyahətdir. Mən bu ideyanı işimə qarşı marağımı itirəndə tapdım. İnsanların mənə verdiyi məsləhətlər də faydasız oldu: "Sevdiyin işi gör", "Xoşbəxtliyini tap", "Həvəsli ol" kimi sözlər heç bir effekt vermədi. Məsləhətlərin hamısı doğru olsa da, heç biri məni tərpətmədi. Nəzəri baxımdan bütün məsləhətlərlə razı olsam da, həyatımda nəyi dəyişəcəyimi bilmirdim. Mən birinci günü nəyi dünənkindən fərqli edəcəyimi bilmirdim. Ona görə "Niyə" konsepti mənim üçün vacib, hərəkətverici faktor oldu və belə də davam edir. Öz "niyə"mi tapmağım yalnız mənim həvəsimi yeniləmədi, o, həmçinin daha doğru seçimlər etmək imkanı yaratdı. "Niyə" konsepti mənə dünyaya fərqli pəncərədən baxmaq imkanı yaratdı. Mən həmin baxış bucağı ilə digər insanlara öz "niyə"sini tapmaqda yardımçı olmağa başladım və beləliklə dünyamızı daha yaxşı məkana çevirmək imkanı qazandıq. Beləliklə mən "Niyə" konsepti və "Qızıl dairə" haqqında seminarlar təşkil etməyə başladım. İnsanlar isə məni həvəslə dinlədilər. Faktiki olaraq insanlar məni dinləməkdən daha çox, əməli addımlar atmağa başladılar. Onlar mənim fikir və düşüncələrimin daha geniş yayılmasında da yardımçı oldular. Beləliklə bizim hərəkatımız yarandı.

Mənim 2009-cu ildə etdiyim TED çıxışı ideyalarımın daha geniş yayılmasına səbəb oldu. "Niyə ilə başla" adlı ilk kitabım "Niyə" konseptini oxucular üçün daha əlçatan etdi. Onu da deyim ki, öz "niyə"sini müəyyənləşdirən insanlar, təşkilatlar daha uğurlu, etibarlı olurlar, işçi və müş-

tərilərin etimadını qazanır, gələcək yönümlü və innovativ fəaliyyət göstərirlər.

"Niyə" konsepti və "Qızıl dairə" xəyal etdiyim dünyanın formalaşmasında əsas rol oynadı. Ancaq müəyyən problemlər vardı. Bununla belə, mən "Niyə"nin varlığına və gücünə insanları inandırmağı bacardım, bəzi fərdlərə və təşkilatlara öz "niyə"sini tapmaqda yardımçı oldum. Təbii ki, hər kəsə əlim çatmadı. İstədiyim qədər insanın həyatını dəyişməyə nail ola bilmədim.

Bu işdə mənə komandam kömək olmağa başladı. Onlar mənim start verdiyim prosesi daha da təkmilləşdirdilər. Onlar hətta insanlara öz "niyə"sini tapmaqda kömək etmək üçün onlayn kurslar yaratdılar. Ancaq bu belə, yetərli deyildi.

Bu kitabın yaranma səbəbi də məhz budur. "Niyə ilə başla" kitabı konseptin açılmasına imkan verdi. "Öz niyəni tap" kitabını isə daha praktik tərzdə qələmə aldım, hansı addımların atılmalı olduğunu dəqiq göstərdim. Bu işdə mənə Devid və Piter yardım etdilər. Onlar "niyə" konseptinin real həyatda tətbiqi ilə bağlı yollar düşündülər.

Piter Doker və Devid Mid mənim xəyal etdiyim dünyaya inandıqlarından bu işə qoşuldular. Onların hər ikisinin ideyanı reallaşdırmaq üçün yol xəritələri vardı. Mən yəqin ki, iki insana öz "niyə"sini tapmağı öyrədə bilmişdim, ancaq Devid və Piter 60 nəfərlik qruplara ideyanı necə çatdırmağın yolunu tapdılar.

Devid iş görməyi bacaran insandır. İllər öncə mənim bir çıxışımdan ruhlanan Devid o zaman çalışdığı şirkətə yardımçı olmaq üçün təlim proqramları və iş kitabları ha-

zırlamağa başlayır. O bütün bunları mənim və digərlərinin köməyi olmadan reallaşdırmışdı. Nəhayət mən onun gördüyü işlər barədə xəbər tutdum. Onun ideyalarımı necə dərindən mənimsədiyinə və onları mükəmməl formada tətbiq etdiyinə təəccüblənmişdim.

Piter isə Kral Hərbi Hava Qüvvələrinin sabiq zabitidir. O, xidmətə özəl sektorda davam etmək istəyirdi. Piter mənim əsərlərimlə tanış olduqdan sonra mənimlə əlaqə yaradıb ideyamdan nə qədər təsirləndiyini bildirdi. O, mənim ideyalarımı gördüyü işlərə tətbiq etmiş, təsirlərini ölçüb müəyyən nəticələrə varmışdı. Biz onunla görüşəndən sonra biz onun ideyalarından yararlanıb şirkət qurmağa və hərəkatımızı genişləndirməyə başladıq.

Nəhayət onların hər ikisi bizim komandaya qoşuldular və onların arasında dərin dostluq bağları yarandı. Onların dahiyanə yanaşmaları bizim işi təkmilləşdirməklə yanaşı onun yeni mərhələyə qədəm qoymasına səbəb oldu. Mən "Niyə ilə başla" kitabının davamını qələmə almaq istəyəndə, onların köməyinə ehtiyac duydum. Hər ikisi ikinci kitabı necə qələmə ala biləcəyim barədə olduqca praktiki məsləhətlər verdilər. Çox şadam ki, hərəkatımız onların hər ikisi üçün təcrübələrini bölüşmək platformasına çevrildi. Onlar öz ideyalarını daha böyük auditoriyaya çıxarmaq imkanı qazandılar.

Bu kitabın ərsəyə gəlməsi bir neçə ilimizi aldı. Piter və Devid "Niyə" konsepti haqqında bəhs etmək üçün dünya səyahətinə çıxdılar, fərdlərlə, şirkətlərlə yaxından təmas qurub, onlara öz "niyə"lərini tapmaqda, planlarını həyata keçirməkdə yardımçı oldular. Onlar suallara qulaq asıb,

problemləri aşkarladılar, ideyanın daha da geniş yayılması üçün yeni həllər tapdılar.

Biznes dünyasının iş tərzini dəyişmək, etimad və əməkdaşlığın istisna deyil norma sayıldığı təşkilatların yaranmasına yardım etmək istəyir, xəyalımızdakı dünyanı yaratmaq istəyiriksə, bir xeyli köməyə ehtiyacımız olacaq. Komandamız bu yöndə ciddi iş aparsa da, lazımi dəyişikliyi yaratmaq üçün onların fəaliyyəti kifayət etməyəcək. Bunun üçün böyük qüvvəyə ehtiyac var.

Devid və Piter də bu praktiki kitabı məhz bu məqsədlə ərsəyə gətirdilər. Bu stolüstü kitab onlara öz niyyətlərini tapmaqda və planlarını reallaşdırmaqda yardımçı olacaq. Biz kitabı dizayn edərkən orada xeyli boşluqlar da qoyduq ki, qeydlərinizi rahat apara biləsiniz. Kitabı sadəcə oxuyub kənara qoymayın, faydalı hesab etdiyiniz məqamların altından xətt çəkin ki, sonra mövzulara daha rahat qayıdasınız.

"Öz niyəni tap" səyahətdir. Bu kitabda qeyd edilənləri tam qavramaq üçün müəyyən zəhmət və səbir tələb olunur. Unutmayın ki, bu kitab sizin üçün bir bələdçidir. Addımları izləyin, konsepti mənimsəməyə, prosesin nəbzini tutmağa çalışın. Sizin üçün daha faydalı hansısa məqam aşkarlasanız, onu ilk növbədə tətbiq edin.

Bu kitabı yarış başlamazdan öncə havaya atılan fişəng kimi görün. Siz özünüzü bu məqama kökləsəniz, həyəcan və enerji ilə dolacaqsınız. Siz dərsləri işə davam edərək öyrənəcəksiniz. Öz "niyə"nizi tapdıqdan sonra isə nəyə qadir olduğunuzu aşkarlayacaqsınız. Bu vacib dərsi isə heç vaxt unutmayın. Məqsədiniz finiş

xəttini keçmək olmamalıdır. Çalışmalısınız ki, sizinlə bərabər daha çox insan bu yarışa qoşulsun, öz "niyə"-sini tapsın.

Bütün kitab mağazalarındakı rəflərdə "özünü yetişdirmək" bölmələri var, ancaq "başqalarına kömək et" bölməsi yoxdur. Biz isə başqalarına necə kömək edəcəyimizi düşünüb bu işə çiyin vermişik, yeni bir sənaye növü yaratmağa çalışırıq. Öz niyəsini tapmaq, öz niyəsi əsasında şirkətini qurmaq istəyən insanlara yardımçı olmaq istəyirik. Biz elə bir dünya yaratmaq istəyirik ki, insanlar səhər yuxudan niyə oyandıqlarını bilsinlər. İşdə özlərini rahat hiss edib, evə məmnun halda dönsünlər. Bizə qoşulan insanların sayı nə qədər çox olsa, əldə edəcəyimiz nəticə də bir o qədər möhtəşəm olacaq. Arzusunda olduğumuz dünyanı daha tez yarada biləcəyik. Bəs siz bizə qoşulmağa hazırsınızmı?